# "PRAKTİKİ BİLİK – DAYANIQLI GƏLƏCƏK" LAYİHƏSİNİN UĞURLARI



**Selcan Ağasərkari,**
*"VLM and Partners" şirkətinin hüquqşünası*
*e-mail: saghasarkari@vlm-az.com*

Bildiyimiz kimi, müasir dövrdə yeni texnologiyaların tətbiqi, sənayedə formalaşmış yeni trendlər, əmək bazarının tələblərinin dəyişməsi peşə təhsilinin əhəmiyyətini artırmaqla yanaşı, onun qeyd olunan dəyişikliklərə uyğunlaşmasını da tələb edir.

Yaxın zamanlarda Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi və "VLM and Partners" hüquq və konsultasiya şirkəti tərəfindən "Praktiki bilik – dayanıqlı gələcək" adlı olduqca önəmli və cəmiyyətimiz üçün faydalı layihə həyata keçirilib. Layihə, məhz Mərkəzdə peşə təhsilinin müasir sənayenin tələblərinə uyğunlaşdırılmasına, peşə təhsilinə özəl sektor investisiyalarının cəlb edilməsinə, peşə təhsilinə olan marağın artırılmasına və Mərkəzin maliyyə dayanıqlılığının gücləndirilməsinə istiqamətləndirilmişdir. Eyni zamanda layihə sənayenin tələblərinə cavab verən kadrların hazırlanması üçün baza yaradılmasını hədəfləyir. Layihə çərçivəsində normativ-hüquqi sənədlərin təhlili, təkmilləşdirilməsi, müqavilə və memorandum şablonlarının hazırlanması, turizmdə peşələr və bələdçilik təliminin təşkili, sosial sahibkarlıq təliminin təşkili və s. kimi bir sıra işlər görülmüşdür.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin layihə üçün seçilmə səbəbi həm yerləşdiyi regionun potensialı, həm də maddi-texniki infrastrukturu baxımından ölkə üzrə yetərincə perspektivə malik təhsil müəssisələrindən olmasıdır. Eyni zamanda ötən il Azərbaycan və Türkiyə hökumətləri arasında imzalanmış peşə təhsili sahəsində əməkdaşlığa dair Protokola əsasən, Türkiyə modeli üzrə fəaliyyət göstərəcək müəssisələrdən biri olması bu Mərkəzin inkişaf potensialını daha da artırır. Mərkəz subbakalavr dərəcəsi verən yüksək texniki-peşə ixtisasları üzrə də tələbələr hazırlamağa başlamışdır. Təhsil müəssisəsində yalnız Qəbələdən deyil, həmçinin digər bir çox regionlardan da tələbələrin təhsil alması, bu müəssisəni regional inkişaf cəhətdən önəmli edir. Mərkəzin belə bir potensiala malik olması və regionlarda əmək bazarının inkişafına töhfə verməsi onun gələcək fəaliyyətində dayanıqlı inkişafını təmin etmək üçün işlər görülməsini zəruri edir. Bütün bu faktorları göz önünə alsaq, layihənin əhəmiyyəti bir daha aydın olur.

Layihə bir sıra tədbirlərin təşkili ilə əlamətdar olmuşdur. Mərkəzdə təhsil alan tələbələr, eləcə də Mərkəzin müəllim heyəti üçün may ayının 15-dən 21-dək silsilə təlimlər və master-klasslar (usta dərslər) təşkil olunmuşdur. Bu tədbirlərin əsas məqsədi tələbələrin müvafiq ixtisaslar üzrə yeni baxışlar qazanması, praktiki bacarıqlara yiyələnməsi, digər tərəfdən isə tədris keyfiyyətinin yüksəldilməsi olmuşdur. İlk növbədə, onu da qeyd edək ki, layihənin icrasında bir sıra ekspertlər, təlimçilər, psixoloqlar və digər şəxslər fəaliyyət göstərmişdir. Qeyd olunan tarixlərdə tələbələr üçün Tural Məhərrəmov tərəfindən "İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları – SƏTƏMM", Nicat Manafov tərəfindən "İnnovativ bizneslərdə yer almaq", Fərid Mustafayev və Müşfiq Səmədli tərəfindən "Turizm. Turizmdə peşələr və bələdçilik", Həvva Səfərova tərəfindən "Turizm sahəsində biznesin təşkili", Rasim Nəcə-

fov tərəfindən “Qida təhlükəsizliyi, HACCP”, Sara Rəcəbli tərəfindən “Sosial Sahibkarlıq”, Fərrux Rəhimli tərəfindən “Hotel menecmenti”, Anarə Zakirli tərəfindən “Tikiş istehsalı”, Emin Hüseynzadə tərəfindən “Kompüter texnologiyalarının əsasları”, İlkin Qəhrəmanlı tərəfindən “Bağçılıq”, Aytəkin Tağıyeva və Xalıq Cabbarov tərəfindən “İş həyatına hazırlıq”, Şəxsi inkişaf və karyera planlaşdırma” mövzularında təlim və master-klasslar təşkil olunmuşdur. Bununla yanaşı, həftə ərzində Günel İsmayılovanın “Nağılçı” layihəsi ilə birgə uşaqlar üçün kukla tamaşaları və “Hekayələrin təhlili: kukla və uşaqlarla fəlsəfə” mövzusunda master-klass təşkil edilmişdir.



Qeyd edək ki, Mərkəzin müəllim heyəti də bu layihədən faydalanıb. Pedaqoji heyət layihənin müxtəlif mərhələlərində aktiv iştirak etmişdir. İlk olaraq maddi-texniki bazanın yaxşılaşdırılması ilə əlaqədar digər təhsil müəssisələrindən mütəxəssislərlə keçirilmiş görüşlərdə Mərkəzin pedaqoji heyəti də yer almışdır. Məhsulların istehsalı prosesində Mərkəzin ustaları və müəllimləri də öz töhfələrini veriblər. Bundan əlavə, may ayında müəllimlər üçün İlahə Rəsulova tərəfindən “Öyrənmə və öyrətmə motivasiyasını necə yaradaq?”, Könül Pirverdiyeva tərəfindən “Yeni nəsil siniflərdə müasir təlim metodlarının tətbiqi” mövzusunda təlimlər də keçirilmişdir. Həmçinin Anarə Zakirli tərəfindən Mərkəzdə təşkil olunan “Tikiş istehsalı” üzrə master klass çərçivəsində bir sıra məhsullar hazırlanmışdır. Həmin məhsullara qadın geyimləri, eko çantalar və başqa tikiş məhsulları da daxildir. Həmin məhsullar daha sonra satışa çıxarılacaqdır. Yaxın zamanda Mərkəzin veb-saytında (gabalaptm.edu.az) yaradılacaq onlayn kataloq vasitəsilə izləyicilər mərkəzdə istehsal olunan məhsullarla daha rahat tanış olmaq və onları əldə etmək imkanı qazanacaqlar.



Əlavə olaraq onu da bildirək ki, layihədə bu dərəcədə uğur qazanmağımızın bir çox səbəbləri vardır. Öncə qeyd etdiyimiz kimi, peşə təhsilinin əhəmiyyəti hər gün daha da artır və müəssisələr daha peşəkar kadrlara ehtiyac duyur. Bunun təmin olunması da peşə təhsili müəssisələrinin üzərinə düşür. Layihəni icra etdiyimiz 6 ay ərzində şahidi olduq ki, regionlarda insanlar, xüsusilə gənclər özlərini inkişaf etdirməyə, sahələrində daha da professionallaşmağa maraqlıdırlar. Belə layihələr gənclərə bu sahədə istiqamət verdiyindən onların da böyük marağına səbəb olur. Bundan başqa, layihənin mövcud problemləri müəyyən etməsi, onların həlli üçün fokuslanmağı da müsbət nəticələr əldə olunmasına gətirib çıxardı. Belə ki, peşə təhsilinin inkişafı və ona marağın artırılması üçün ölkə üzrə çox işlər görülməli olduğunu hesab edirik. Layihənin əhəmiyyətini də nəzərə alsaq, cəmiyyət tərəfindən xoş və müsbət reaksiyalara şahid olduq. Layihənin icrası müddətində təşkil etdiyimiz tədbirlər sosial mediada və KİV-də geniş şəkildə işıqlandırıldı. Bütün bu proseslər ərzində həm ictimaiyyətdən, həm əməkdaşlıq etdiyimiz qurum və müəssisələrdən, həm də tələbələrdən çox müsbət geridönüşlər aldıq. Özəl şirkətlər kadr ehtiyaclarını ödəmək üçün peşə təhsilli gənclərə ehtiyac duyur və bu istiqamətdə peşə təhsili müəssisələri ilə əməkdaşlıqda, bacarıqlı tələbələrin seçilərək işə cəlb olunmasında maraqlıdır. Düzgün koordinasiya olunmuş əməkdaşlıq strategiyası ilə belə müəssisələr və sahibkarlar peşə təhsili müəssisələri ilə işləməyə cəlb oluna bilər. Cəmiyyətin, gənclərin peşə təhsilinin önəmi ilə bağlı maarifləndirilməsi onlarda bu istiqamətdə marağı daha da artırır. Düşünürük ki, peşə təhsilli kadrların məşğulluq səviyyəsinin artırılması ilə bağlı görülən işlər gənclərin peşə təhsilinə yönəldilməsini sürətləndirəcək.